# Müəllimlər və şagirdlər üçün

# İbtidai İcma quruluşuna dair hazırlanmış əlavə alternativ vəsait



## Azərbaycan ərazisində İbtidai icma quruluşu

## 1,5 milyon il bundan əvvəl

- **Azərbaycan ərazisində İlk insan dəstələri (sürülər) meydana gəlməyə başladı.**
- **İlk insan dəstələri *ulu icma* adlanırdı.**
- **Ulu icmada insanlar birgə ( kollektiv) yaşayırdılar.**
- **Ölkəmizdə ən qədim insanların yaşadığı düşərgələr Qarabağ *(Azıx, Tağlar)*, Qazax *(Damcılı, Daşsalahlı)*, Naxçıvan( Qazma), Kəlbəcər *(Zar)*, Lerik *( Buzeyir)*,Yardımlı bölgələrində aşkar edilmişdir.**



## 1,5 milyon il bundan əvvəldən- 100 min il bundan əvvələ qədər Alt Paleolit dövründə

- **<u>Alt Paleolit</u> dövrünün insanları nın həyat tərzi Qarabağın *Quruçay vadisində*, *Füzuli şəhəri* yaxınlığında yerləşən *Azıx mağarası*nda əldə edilən materiallar əsasında öyrənilmişdir.**
- **Alt paleolitdə insanlar bütöv daşlardan qopmuş qəlpələrdən dişli, ucu oymalı, qaşov tipli alətlər, kəsici alətlər hazırlaya bilirdilər.**



- **<u>Azıx mağarasında</u> *əl çapacaqları*, *ərsin- qaşov* və *sıyırğac tipli alətlər* aşkar edilmişdir.**
- **<u>Azıx mağarasında</u> tapılmış ayı kəllələrinin üzərindəki xüsusi cızıqlar insanların *sadə dini ayinlər və totemik görüşləri* ilə bağlıdır.**
- **<u>Azıx mağarasındakı</u> tikinti qalığı, qədim insanların tədricən *tikinti vərdişlərinə* yiyələnmələrini göstərir.**
- **<u>700 min il bundan əvvəl</u>- Azıx mağarasında *oddan* istifadə edilməyə başlanılıb**
- **<u>350-400 min il bundan əvvəl</u>- Azıx adamı yaşamışdır. Keçmiş SSRİ ərazisində ilk, dünyada *dördüncü* tapıntıdır. Bu tapıntı Azərbaycanın Qədim insanın formalaşdığı əraziyə daxil olduğunu sübut edir.**



- ***İnsanlar mənimsəmə ( yığıcılıq- meyvələr, ağac kökləri, süfrələrin toplanılması )* təsərrüfatı ilə məşğul olurdular.**
- ***Birgə(kollektiv)* qidalanma mövcud idi.**

## 100 min il bundan əvvəldən – e.ə 40-cı minilliyə qədər

## Orta Paleolit dövrü



- **Bu dövrü mənbələrdə *Mustye dövrü* də adlandırılar.**
- **Bu dövrə məxsus olan qalıqlara Fransada Mustye adlanan ərazidə rast gəlinmişdir.**
- **Orta Paleolit dövründə insanların Azərbaycan ərazisinə daha geniş yayılmağa başlamışlar.Onlar Kiçik Qafqazın *cənub – şərq yamacında*, *Naxçıvan*, *Qarabağ, Qazax* bölgələrində məskən salmışlar.**
- **Yeni insan tipi olan *Neandertal insan* formalaşmışdır.**
- **İnsanlar bu dövrdə əsasən *ovçuluqla* məşğul olmuşlar.**
- ***Axirət dünyasına inam* ilk dəfə bu dövrdə meydana gəlmişdir.**
- ***Ovsun, heyvanlara(totemlərə), təbiət qüvvələrinə inam* kimi dini təsəvvür formaları yaranmağa başlamışdır.**



- Bu dövrdən başlayaraq *ulu icma* yavaş yavaş sıradan çıxmağa başlamış və *qəbilə icması* yaranmağa başlamışdı.
- İnsanlar od ətrafında birgə yığışırdılar. Səbəb- *birgə isinmək, eləcə də vəhşi heyvanlardan qorunmaq idi.*
- Onların birgə yaşama səbəbləri- *birgə qida əldə etmək idi.*

## 40 min il bundan əvvəldən- e.ə 12 min il bundan əvvələ qədər

## Üst Paleolit dövrü



- Bu dövrün maddi qalıqlarına *Qarabağ* və *Qazax* bölgələrində rast gəlinmişdir.
- İnsanların istifadə etdikləri əmək alətləri : *uclu qaşovlar, biz, dairəvi, yarımdairəvi və uzun qaşovlar, gəzli yəni (kənarı dişəkli) və üçbucaq* əmək alətləridir.
- Bu dövrdə Azərbaycan ərazisində müasir insan tipinin, yəni *"ağıllı" insanın (Homo Sapiens)* yaranması başa çatmışdır.
- Ulu icmanın *qəbilə icması* ilə əvəz olunması , insanların ana xətti ilə qohumluq əsasında birləşməsi. "*Ana xaqanlığı*" Dövrünün başlanması.

## E.ə XII- VIII minilliklər- Mezolit dövrü



- **Azərbaycanda Mezolit dövrünə məxsus olan Abidələr, *Qobustan abidələri və Damcılı* mağarasıdır.**
- **Bu dövrdə yaşayış üçün əlverişli iqlim şəraiti yaranmışdır.**
- ***Ox və kaman* ixtira edilmişdir.**
- **Ox və kamanın ixtirasından sonra *ovçuluq əsas peşəyə* çevrilmişdir.**



- ***İbtidai maldarlığın əsası qoyulmuşdur*.**
- ***İbtidai əkinçilik vərdişləri* yaranmağa başlamışdır.**
- **Mənimsəmə təsərrüfatından *istehsal təsərrüfatına keçidin əsası qoyulmuşdur.***
- **Bu dövrdə insanlar axirət dünyasına inanır, ölüləri *dəfn edərkən onların yanına məişət əşyaları qoyurdular.***
- ***İbtidai incəsənət* xeyli inkişaf etmişdir.**

- **Bu dövrün insanlarının *ovsun – totem inamlarını, dini ayinlərini, ov səhnələrini* əks etdirən rəsmlər *Qobustan qayalarında* həkk olunmuşdur.**
- **Bu dövrdə insanlar sümük və daşdan hazırlanmış *toxa*dan istifadə edirdilər.**
- **Heyvanların əhilləşdirilməsinə başlanılmışdır ki, ilk əhlləşdirilmiş heyvan it olmuşdur.**

## E.Ə VII-VI minilliklər - Neolit dövrü

- **Bu dövrdə *istehsal təsərrüfatı* meydana gəlmişdir.**
- **Bu dövrə aid *daş toxalar, oraq dişləri, çəkic, balta* və lövhələrdən ibarət əmək alətləri *Naxçıvanda*, *Gəncə* ətrafında, *Təbriz* yaxınlığında, *Qobustanda* və *Qazax* bölgəsində tapılmışdır.**
- **Əhali *oturaq həyata* keçmişdir.**
- **Əhali əkinçilik və maldarlıqla yanaşı, ovçuluq və balıqçılıqla da məşğul olmuşdur.**
- **Bu dövrdə insanlar saxsı qablar düzəltməyə başlamışlar.**
- ***Dulusçuluq* yaranmışdır.**
- **İnsanlar daş alətləri deşməyi, cilalamağı öyrənmiş və toxuculuqla məşğul olmuşlar ki bu mühüm dəyişikliklər tarixdə "*Neolit inqilabı* " adlanır.**



# E.Ə. VI - IV minilliklər – Eneolit dövrü

- **Bu dövrdə ilk dəfə *metal alətlərdən* istifadə edilmişdir.**
- **İlk əldə edilən metal mis olmuşdur.Lakin mis alətlərin hazırlaması üçün keyfiyyətli metal deyildi. Bərk torpaq onu tez əyirdi.**



- **Azərbaycanda bu dövrə məxsus insanların yaşayış məskənləri *Gəncə - Qazax, Mil- Qarabağ, Muğan, Naxçıvan, Urmiya gölü* ətrafında və *Təbriz* yaxınlığında yerləşirdi.**
- **İnsanların qəbilə icması halında yaşamış, əkinçilik, maldarlıq, balıqçılıq, dulusçuluq, daşişləmə, sümükişləmə, toxuculuq ilə məşğul olmuşlar.**
- **Bu dövrdə *toxa əkinçiliyi* meydana gəlmişdir.**
- **Toxa əkinçiliyi ilə qadınlar məşğul olurdular.**
- **İlk dəfə atın əhilləşdirilməsinə başlanılmışdır.( e.ə. V min. Axırlarında, *Əliköməktəpə abidəsi – Cəlilabad bölgəsində ).***
- **Bu dövrdə *Ana xaqanlığı nəslinin* cəmiyyətdəki çoxminlilik hakim mövqeyi tədricən sona çatmışdır.**

- **Cəmiyyətin həyatında *icma ağsaqqalları şurası* mühüm rol oynamağa başlamışdır.**
- **Tuc dövrünə keçidin əsası qoyulmuşdur.**
- **Bu dövrdə ölülər yaşayış binalarının arasında və evlərin içərisində basdırılmışdır.**
- **Ölülər basdırılarkən qan rəmzi olan qırmızı boya , yaxud da oxra ilə boyanırdı.**
- ***Ovçuluq və balıqçılıq ikinci peşəyə* çevrilmişdir.**
- **İnsanlar dairəvi evlərdə yaşayır, qoşa nikaha əsaslanan ailələr mövcud idi.**
- **Evlərin ortasında yada küncündə qızınmaq və yemək bişirmək üçün kürələr mövcud idi.**
- **Bu dövrə məxsus çoxlu qadın siluetlərinə rast gəlinmişdir.**

## E.Ə IV minillik - III minilliyin sonu

## Erkən Tunc Dövrü

- **Bu dövr mədəniyyəti tarixdə *Kür – Araz mədəniyyəti* kimi tanınır.**
- **Bu dövr mədəniyyətinə *Qarabağda, Naxçıvanda, Xaçmazda , Qazaxda, Şəmkirdə, Qobustanda, Urmiya* ərazisində tapılmış materiallar əsasında öyrənilmişdir.**
- ***Sərkərtəpə ( Xaçmaz)* yaşayış məskənində dairəvi planlı böyük *ibadət evi* aşkar edilmişdir.**

- ***Toxa əkinçiliyi xış əkinçiliyi ilə əvəz olunmuşdur.***
- ***Birinci böyük ictimai əmək bölgüsünün meydana gəlməsi***
- ***Süni suvarmanın yaranması.***
- **Şumlama zamanı *qoşqu heyvanlarından* istifadə edilməsi.**
- **Dulusçuluğunun daha çox inkişaf etməsi.**
- **Bu dövrdə *ölülər yaşayış məskənlərindən kənarda dəfn edilmiş, ölüyandırma və kollektiv dəfnetmə* mərasimi meydana gəlmişdir.**
- ***Anaxaqanlığı ataxaqanlığı* ilə əvəz olunmuşdur.**
- **Bu dövrdə kişi əməyi ön plana keçmişdir.**
- ***Qonşuluq icmaları* yaranmağa başlamışdı.**
- ***İlk tayfalar* meydana gəlmiş, qəbiləni tayfalar əvəz etməyə başlamışdı.**
- **Əmək alətləri və zinət əşyaları *tuncdan* hazırlanmağa başlamışdı.**
- **Sosial və əmlak bərabərsizliyi yaranmışdır.**

## E.Ə III minilliyin axırı –II minilliyin ortaları

## Orta Tunc Dövrü

- **Bu dövrdə kənd tipli məskənlərlə yanaşı *ilkin şəhər* mərkəzləri də yaranmışdı.**

- **İlk şəhər tipli məskənlər *Naxçıvan və Urmiya* bölgələrində aşkar edilmişdir.**
- **Sosial və əmlak bərabərsizliyinin artması, tayfalararası əlaqələrin genişlənməsi, *bağçılıq, bostançılıq, üzümçülük və şərabçılıq* kimi yeni təsərrüfat sahlərinin meydana gəlməsi.**
- ***Sənətkarlığın başqa sahələrdən ayrılması və ikinci ictimai əmək bölgüsünün* baş verməsi.**
- **Mübadilənin inkişaf etməsi.**
- **Qəbilə və tayfaların tayfa ittifaqlarında birləşməsi və *tayfa ittifaqlarının* yaranması.**
- **Zəif tayfaların güclü tayfalara tabe olması.**
- **Dulusçuluğun inkişaf etməsi. Bu dövrə məxsus Naxçıvanda *Kültəpə abidəsində* bu dövrə aid dulusçuluq məhəlləsi və dulus sobaları tapılmışdır.**

## E.Ə XIV- XII əsrlər

## Son Tunc Dövrü.

- **Bu dövrdə Azərbaycanda *ibtidi icma quruluşu dağılmağa başlamışdır..***
- **Bu dövrə aid *yaşayış və təsərrüfat binaları, müdafiə tikililəri*, *siklopik qalalar* tədqiq edilmişdir.**

- **Qazax rayonundakı *Sarıtəpə, Babadərviş* yaşayış məskənlərində təsərrüfat quyularının və küplərin içərisində taxıl və un qalığı aşkar edilmişdir.**
- **Üzümçülük və şərabçılıq inkişaf etmişdir.**
- ***Kurqanlarda dəvə skeleti* aşkar edilmişdir.**
- **Bu dövrün dini etiqadları və mərasimləri içərisində *oda sitayiş, suya , dağa, meşələrə, müxtəlif ağac növlərinə sitayişin geniş yer tutması.***
- **Atdan minik və qoşqu vasitəsi kimi geniş istifadə olunması da bu dövrə təsadüf edir.**
- ***Ata sitayişin yaranması.***
- **Təsərrüfatda yarımköçəri *yaylaq maldarlığının ön plana keçməsi.***
- **Maldar tayfaların dağlıq zonalarda məskunlaşması, dağətəyi bölgələrdə ətrafı möhkəmləndirilmiş yaşayış məskənlərində, düzənliklərdəki mövsümi qışlaqlarda yaşaması.**

## E.Ə XI – VIII əsrlər

## İlk Dəmir Dövrü.

- **Bu dövrdə Azərbaycanda İbtidai icma quruluşunun dağılması daha da sürətlənmişdir.**
- **Hakimiyyət *ayrı – ayrı nüfuzlu şəxslərin əlində cəmlənməyə* başlamışdır.**



- ***Cəmiyyət yoxsullara və varlılara parçalanmışdır.***
- **Dəmirdən müxtəlif əşyalar hazırlanmağa başlamışdır.**
- **Səma cisimlərinə *( Aya , Günəşə, Ulduza) inam* dərin kök salmışdır.**
- **Tayfalar qonşu ölkələrlə, xüsusilə Assuriya dövləti ilə xammal və hazır məhsulla ticarət aparmaları. Bunu Xocalıda tapılan üzərində mixi yazı ilə Assuriya hökmdarı *Adadnirarinin adı yazılmış muncuq* təstiq edir.**
- **İncəsənət yüksək inkişaf etmişdir.**
- **İlk tayfa ittifaqlarının yaranmasının ibtidai icma quruluşunun dağılmasını sürətləndirməsi.**
- **Azərbaycanın Yaxın Şərqin mədəniyyət ocaqları ilə sıx əlaqədə olan cənub ərazilərində ilk quldar dövlətlərin əsasının qoyulması.**

**Hazırladı:**

**Bayramova Leyla**